# Neft sənayesi üçün peşəkar kadr hazırlığı işi daha da təkmilləşdirilir

## SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin Qobustan Regional Təlim Mərkəzində yeni tədris ilinin başlanması münasibətilə tədbir keçirildi






























**Ötən gün Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin təlim mərkəzlərində yeni tədris ilinin başlanması münasibətilə Qobustan Regional Təlim Mərkəzində tədbir keçirildi. Tədbirdə SOCAR-ın Kadr, rejim və informasiya texnologiyaları üzrə vitse-prezidenti Xalik Məmmədov və şirkətin idarə və müəssisələrinin rəhbərləri iştirak edirdilər.**

Tədbiri giriş sözü ilə açan SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin (TTSİ) rəisi Fuad Süleymanov Mərkəzin fəaliyyətindən danışaraq müdavimləri təbrik etdi. F.Süleymanov qeyd etdi ki, bu gün Azərbaycan iqtisadiyyatının güclənməsində xüsusi rolu olan Dövlət Neft Şirkətində təhsil sahəsində çox böyük işlər həyata keçirilir. Azərbaycana müasir texnologiyaların gətirilməsi, neft sənayesinin infrastrukturunun yenidən qurulması üçün ölkədə yüksək peşəkar milli kadrların hazırlanması istiqamətində mühüm işlər davam etdirilir. TTSİ-nin rəisi məlumat verdi ki, Qobustan Regional Təlim Mərkəzində həm SOCAR-ın, həm də Azərbaycanda fəaliyyət göstərən xarici neft və qaz şirkətlərinin ixtisaslı fəhlə kadrlarına ehtiyaclarının ödənilməsi üçün də imkanlar yaradılıb. F.Süleymanov vurğuladı ki, Mərkəzdə neft sənayesi üzrə kadrların hazırlanması ilə peşəkar və yüksək ixtisaslı müəllim heyəti məşğul olur. Şagirdlərə ixtisas fənləri ilə yanaşı, istehsalatda baş verə biləcək qəzalardan mühafizə edilmək məqsədilə əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydaları, yanğından mühafizə, ilk tibbi yardım, ətraf mühitin mühafizəsi kimi fənlər geniş şəkildə tədris edilir.

Sonra TTSİ-nin fəaliyyətinə həsr olunmuş təqdimat keçirildi və videoçarx nümayiş olundu. TTSİ-nin Tədrisin keyfiyyətinə nəzarət şöbəsinin rəis müavini Rəsul Hacıyev bildirdi ki, SOCAR-ın təlim mərkəzlərində ümumilikdə 61 775 nəfər, Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi 2011-ci ildə təsis olunandan sonra isə 53 852 nəfər təlimdən keçib. Onun sözlərinə görə, təlim mərkəzlərində 2005-2011-ci illərdə təlim keçmiş 70 şagird Heydər Əliyev Fondu tərəfindən göndərilən, uşaq evlərində böyümüş şagirdlər olub. Bu il isə onların sayı 7 nəfərdir. Onlar tədris müddətində gündəlik isti yemək və yataqxana ilə təmin olunacaqlar. R.Hacıyev cari ildəki qəbul prosesindən də söhbət açdı. Qeyd etdi ki, bu il qəbul imtahanları iki mərhələdə keçirilib, 1-ci mərhələdə müsahibə aparılıb, müsahibədən uğurla keçən namizədlər test imtahanına buraxılıb. Test imtahanından uğurla keçən 247 nəfər gənc TTSİ-nin tələbəsi adına layiq görülüb. Onlar arasında 66 nəfər ali təhsillidir.

Tədbirdə çıxış edən SOCAR-ın Kadr, rejim və informasiya texnologiyaları üzrə vitse-prezidenti Xalik Məmmədov peşəkar fəhlə kadrların hazırlanmasında Şirkətin Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rolunu xüsusu vurğuladı. X.Məmmədov bu il yüksək bal toplayaraq qəbul olunmuş şagirdləri, eləcə də Mərkəzin mühəndis-pedaqoji heyətini təbrik etdi, onların nəzəri və praktiki biliklərə cidd-cəhdlə yiyələnəcəklərinə, milli ruhlu, layiqli kadrlar kimi yetişəcəklərinə əmin olduğunu söylədi. Beynəlxalq standartların tələbi səviyyəsində iş qurmaq üçün fəhlə kadrların hazırlanması işinə ciddi fikir verildiyini diqqətə çatdıran X.Məmmədov Azərbaycanda dövlət səviyyəsində təhsilə göstərilən qayğıdan, eləcə də gənc nəslin təlim və tərbiyəsi istiqamətində görülən işlərdən bəhs edərək bildirdi ki, bu gün doğrudan da möhtəşəm gündür: "Bu gün Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Dövlət başçısı cənab İlham Əliyev kadr hazırlığını iqtisadi inkişafa uyğunlaşdırmağı qarşıya mühüm vəzifə kimi qoymuşdur. Ümummilli lider Heydər Əliyevin daim peşə təhsilinə ayırdığı diqqət bu gün uğurla davam etdirilir. Ölkəmizdə təhsil sahəsində qazanılan uğurlarda Heydər Əliyev Fondunun rolu misilsizdir. Son 12 ildə Azərbaycanda 2500-dən artıq məktəb tikilib və tamamilə təmir olunaraq yenidən istifadəyə verilib. Bu, Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğının əyani təzahürüdür. Qaradağ rayonunun Bakının ən böyük sənaye mərkəzlərindən birinə çevriləcəyi, burada çox sayda böyük sənaye müəssisələrinin yaradılacağı, nəhəng tikinti-quraşdırma işlərinin aparılacağı və həmin obyektlərdə yüksək ixtisaslı fəhlə kadrlarına ciddi ehtiyac olacağı nəzərə alınaraq, Prezident İlham Əliyevin tapşırığı ilə bu rayonun Qobustan qəsəbəsində yeni inşa edilmiş orta məktəb SOCAR-ın balansına verilmiş və burada Qobustan Regional Təlim Mərkəzi yaradılmışdır. Mərkəz Şirkətin ixtisaslı fəhlə kadrlara olan tələbatının ödənilməsində mühüm rol oynayacaq." X.Məmmədov "bp-Azərbaycan" şirkətinin SOCAR ilə peşə təlimi sahəsində əməkdaşlığının yeni mərhələdə olduğunu qeyd etdi. Vitse-prezident "bp-Azerbaijan" şirkətinin SOCAR ilə təlim sahəsində əməkdaşlığından, SOCAR-ın xarici və daxili təqaüd proqramlarından da söz açdı.

Tədbirdə çıxış edən "bp-Azərbaycan" şirkətinin vitse-prezidenti Leyla Novruzova, "BOS-Şelf"in təmsilçisi İlqar Məmmədov, Qaradağ Rayon İcra Hakimiyyəti başçısının müavini Təranə İsmayılova, SOCAR-ın idarə və müəssisələrinin rəhbərləri peşəkar fəhlə kadrların hazırlanmasına göstərilən diqqət və qayğıya görə dərin minnətdarlıqlarını ifadə etdilər.

Xatırladaq ki, SOCAR-ın təlim-tədris mərkəzlərinə qəbul imtahanlarından uğurla keçən 247 nəfər gənc 17 ixtisas - akkumulyatorçu, "aparatçı", avtomatik idarəetmə sistemi üzrə operator, çilingər santexnik, əl ilə elektrik qaz qaynaqçısı, elektrik qaz qaynaqçısı, karotaj stansiyasının maşinisti, plasmas qaynaqçı, polad və dəmir beton konstruksiyalarının quraşdırılması üzrə quraşdırıcı, qablaşdırma üzrə operator, qazpaylayıcı stansiyanın operatoru, qaz qaynaqçısı, qazla kəsən, qazma qurğusunun maşinisti, takelajçı, təmirçi çilingər və texnoloji qurğuların operatoru ixtisasları üzrə TTSİ-nin təlim mərkəzlərinə qəbul olunublar. Bunlardan 125 nəfər 8 ixtisas üzrə Qobustan Regional Təlim Mərkəzində, 68 nəfər 5 ixtisas üzrə Sumqayıt TTM-də, 54 nəfər isə 4 ixtisas üzrə kadr hazırlığının təşkili mərkəzində təhsil alacaqlar.

Tədbirin sonunda yüksək bal toplayan müdavimlərə vəsiqələr təqdim olundu.

Sonra SOCAR-ın Kadr, rejim və informasiya texnologiyaları üzrə vitse-prezidenti Xalik Məmmədov jurnalistləri maraqlandıran sualları cavablandırdı: "Bu cür Regional Təlim Mərkəzində təhsil almaq Azərbaycan gənclərinə yaradılan nümunəvi şəraitdir. Mərkəzdə lazımi şərait yaradılıb ki, Dövlət Neft Şirkəti üçün ixtisaslı kadrlar hazırlansın. SOCAR-ın idarə və müəssisələrində gənc istedadlı fəhlə kadrlarına tələbatın olduğu üçün burada gələcəkdə iki növbəli təhsil sistemi də yaradılacaq." X.Məmmədov qeyd etdi ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin gələcəkdə böyük planları var və bu planları həyata keçirəcək gənc mütəxəssislər yetişməlidir: "Ölkəmizin bütün bölgələrində regionların qazlaşdırılması proqramı həyata keçirilir. Bununla bağlı abonentlərin sayı getdikcə artır. Buna görə də rayonlarda mütəxəssislər azdır. Bütün bunları nəzərə alaraq regionlarda gənclər arasında qəbul elan edilməlidir. Seçilmiş gənclər üçün təlim mərkəzlərinin mütəxəssisləri tərəfindən bölgələrdə istehsalat təlimləri təşkil ediləcək. Artıq gələn aydan etibarən bu işlərə start veriləcək. "Azəriqaz" İB bununla bağlı artıq vakansiya elan edib. Ümumilikdə respublika üzrə 400-ə yaxın qaz xətlərinin çəkilişinə çilingərlər cəlb olunacaq."

**Orxan Vahidoğlu,**
***"İki sahil"***